**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**PEDAQOGİKA KAFEDRASI**

# 5802.01 – Təhsilin təşkili və planlaşdırılması Fəlsəfə proqramı üzrə doktoranturaya qəbul üçün

# PROQRAM

**Bakı – 2026**

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**PEDAQOGİKA KAFEDRASI**

# 5802.01 – Təhsilin təşkili və planlaşdırılması Fəlsəfə proqramı üzrə doktoranturaya qəbul üçün

# PROQRAM

Sosial elmlər və psixologiya fakültəsinin elmi şurasının 19 mart 2026-cı il tarixli 7 saylı protokolu ilə təsdiq edilmişdir.

**Bakı – 2026**

**Elmi redaktor:** prof. N.M.Muxtarova

**Proqramı hazırlayanlar:** prof. L.N.Qasımova
prof. M.A.İsmixanov

**Rəyçilər:** prof. H.Ə.Əlizadə
dos. N.B.İmamverdiyeva

## İzahat vərəqi

“Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramında” təhsil menecerlərin hazırlanmasına, yenidən hazırlanmasını və ixtisasının artırılmasını müasir tələblər səviyyəsində təşkili və planlaşdırılması prioritet istiqamətlər kimi müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikası Təhsil Qanununun pedaqoji işçilərin hüquq və vəzifələrindən bəhs edən 49-cu maddəsində deyilir ki, pedaqoji işçilərin hüquq və vəzifələrindən biri də müəssisənin Nizamnaməsinə uyğun olaraq təhsilin idarə olunmasında iştirak etməkdir.

Bu baxımdan təhsilin doktorantura pilləsi üzrə “Tədrisin təşkili və planlaşdırılması” ixtisas proqramına daxil edilmişdir. Proqramın hazırlanması da bu zərurətdən irəli gəlmişdir.

Beləliklə, ixtisasından və təhsil formasından asılı olmayaraq təhsilin doktorantura pilləsinin hər bir məzunu təhsilin təşkili və planlaşdırılması, xüsusilə təhsil menecmenti məsələləri sahəsində müəyyən həcmdə bilik və bacarıqlar qazanmalıdır.

Tərtib etiyimiz proqram məhz bu boşluğu doldurmağa xidmət edir.

Proqramda təhsil sahəsində aparılan islahatların öyrənilməsi milli kurikulumun tətbiqi, beynəlxalq təcrübənin öyrənilməsi və İKT-dən istifadə, Təhsilin planlaşdırılması və təşkili ilə bağlı məsələlər şərh olunmuşdu.

1. **Fənnin öyrənilməsinin məqsəd və vəzifələri**.

*Fənnin tədris məqsədləri:*

“Təhsilin planlaşdırılması və təşkili” fənninin məqsədi müasir tələblərə cavab verən Təhsil sahəsində aparılan islahatlar, rəhbər tutan, dərin bilik və praktik bacarıqlara malik olan kadrlar hazırlığını həyata keçirməyə yönəldilmişdir. Proqramda müasir dövr tədqiqatlara və

araşdırmalara diqqət yetirilmişdir. Kursun həm də məqsədi pedaqoji dəyərlərə yiyələnə bilən, onu qorumağa qadir olan, gələcək nəsillərə ötürməyi bacaran şəxsiyyətlər formalaşdırmaqdır.

*Fənnin vəzifələri:*

Təhsilin təşkili və planlaşdırılmasının sahələrini inteqrasiya edir. Fənnin tədrisinin qarşısında bir sıra vəzifələr dayanır.

- Doktorantların təhsilin təşkili və planlaşdırılması ilə bağlı çətinliklərini, onların şəxsi və intellektual səviyyələrinin inkişafına mane olan amilləri aradan qaldırır;
- Təhsilin təşkilinə müasir səviyyədə nail olmaq;
- Tədris proqramlarının, dərsliklərin tərkibinə müasir yanaşmanı həyata keçirmək;
- Yeni texnologiyalara yiyələnmək;
- Planlaşdırmanın aparılmasında milli-mənəvi dəyərlərə əməl etmək;
- Pedaqoji işin təşkili mexanizmini öyrənmək.

*Fənnin digər fənnlər sturukturunda yeri.*

Təhsilin planlaşdırılması və təşkili pedaqoji elmlər sırasında yenidir. O, idarəçilik işinin nizama salınmasında və təşkilində bir sıra fənlərə, eləcə də idarəçilik bacarığını inkişaf etdirən fənlərlə sıx bağlı olub, bu fənlərin öyrənilməsi nəticəsində əldə edilmiş bilik və bacarıqlara söykənir. Bu fənlər sırasına “Pedaqogika”, “Təhsilin idarəedilməsi”, Təhsilin təşkili, planlaşdırılması və idarə edilməsi” və s. daxildir.

*Fənnin tədrisi başa çatdıqda təhsil alanlar.*

Fənnin öyrənilməsi ilə bağlı qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün doktorantların qarşısında bir sıra vəzifələr durur.

- Təhsilin təşkili və planlaşdırılmasının mahiyyəti, məzmunu, prinsipləri, elmlər sırasında onun yerini müəyyənləşdirmək;

- Təhsildə planlaşdırmanın və onun təşkilinin əhəmiyyətini müəyyənləşdirə bilmək;
- İdarəçilikdə təhsilin təşkili və planlaşdırmanın rolunu öyrənmək;
- İdarəçilik funksiyalarını bilmək;
- Təhsilin təşkili formalarını araşdırmaq;
- Planlaşdırmanın təşkilinin təhsilin səmərəliliyinə təsirini öyrənmək;
- Təhsilin təşkilində pedaqoji mühiti nəzərə almaq;
- Təhsilin təşkilinin tarixini öyrənmək.

Tədris planına uyğun olaraq tədris prosesi bir sıra prinsip və vasitələr əsasında həyata keçirilir.

Auditoriya məşğələlərinin mühazirə, seminar, laborator məşğələlər, auditoriyadan kənar: ekskursiyalar, kollekviumlar, fərdi işlər, imtahanların, həmçinin müxtəlif formalada fərdi cütlərlə dialoq, frontal sorğu və s. vasitəsilə həyata keçirilir. Kursun doktorantların təhsil müddəti ərzində bilik səviyyələrinə uyğun mühazirə mətnlərinin elektron və ya çap variantları təhsilverən tərəfindən hazırlanır. Nəzəri təlim müddəti bitdikdən sonra, yəni müvafiq semestrin sonunda fənn üzrə bilik, bacarıqları yoxlanılır. Fənnin tədrisinin göstərilən texnoloji formalarının həyata keçirilməsi üçün aşağıdakı təlim mərhələləri və prinsipləri nəzərdə tutulur: motivasiya; müsahibə; müzakirə; frontal sorğu; interaktiv təlim; tədqiqatın (təhlilin) aparılması; informasiyanın toplanması, informasiya mübadiləsi və onun işlənib hazırlanması, yaradıcı yanaşma; müzakirəsi, özünüqiymətləndirmə və s.

## 2. Təhsil proqramının strukturunda fənnin yeri.

Pedaqogika fənni Azərbaycan Respublikası Təhsil Nazirliyinin Ali Təhsil pilləsinin Dövlət Standartlarında (2020-ci il) doktorantura səviyyəsinin ixtisas üzrə Təhsil proqramında müəyyən olunmuş müəllimlik peşəsinin

ixtisas peşə hazırlığı fənləri bölümünün ixtisas fənləri blokuna daxildir.

**3. Fənnin tədrisi nəticəsində doktorantlarda formalaşan kompetensiyalar.**

Təhsilin təşkili və planlaşdırılması ixtisası Təhsil proqramının ixtisas-peşə hazırlığı fənləri ilə birlikdə aşağıdakı formada ümmədəni və peşə kompotensialarının formalaşması üçün əsas rol oynayır.

Pk-1. Təşkilatçılıq anlayışının formalaşması;

Pk-2. Təhsilin planlaşdırmaq qabiliyyəti;

Pk-3. Davamlı təlim və peşakar inkişafla bağlı şəxsi və digərlərinin ehtiyaclarını qiymətləndirmək;

Pk-4. Təhsilin planlaşdırma metodikasını bilmək;

Pk-5. Tələbələr arasında əlaqələrin qurulması və təmin edilməsi üçün səmərəli strategiyaların tətbiqi;

Pk-6. Elmi axtarışlarının nəticələrini təqdim etmək bacarığına;

Pk-7. Doktorantların tədqiqat aparmaq təcrübəsində əldə etdikləri bilik və bacarıqları peşəkarlıq sahəsində tətbiq etmək üçün hazırlanması

Pk-8. İdarəçilik bacarığına yiyələnmək;

Pk-9. Peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri həll etməyə;

Pk-10. Ümumi və fərdi iş formalarını təşkil etməyə.

**4. Fənnin həcmi və tədris növləri. 4.1. Fənnin ümumi həcmi 4 kredit vahididir (60 saat).**

**4.2. Fənnin tədrisi universitetdə 2 tədris semestri üzrə nəzərdə tutulmuşdur.**

***Fənnin semestr üzrə bölgüsü***

| № | Dərsin növləri | Saat |
|---|---|---|
| 1 | Təhsilin təşkili və planlaşdırılması | 30 |
| 2 | Auditoriya dərsləri | 30 |
| 3 | Mühazirə | 30 |

| | | |
|---|---|---|
| | **I modul – Təhsilin təşkili metodologiyası** | 8 |
| | **II modul – Təhsilin planlaşdırılması** | 10 |
| | **III modul – Kurikulumun planlaşdırılması** | **10** |
| | **IV modul – İdarəetmə** | **2** |
| **4** | **Seminar** | **30** |
| **5** | **Təhsilalanların müstəqil auditoriyadankənar işləri** | |
| | **I modul – Təlimin planlaşdırılması və təşkilinin mexanizmini həyata keçirilmə texnologiyasını, idarəçilik bacarıqları** | |
| | **II modul – Təhsilin təşkili tarixini, müasir yanaşmaları, formalarını, məzmununun aydınlaşdırılması** | |
| | **III modul – Təhsilin planlaşdırılmasının nəzəri, praktik əsasları, təlim səmərəliliyi** | |
| | **IV modul – İdarəetmədə təhsilin planlaşdırılması və təşkili** | |

***Fənnin mənimsənilməsi nəticəsində doktorantlar***

**Bilməlidir:**

- Təhsilin təşkili və planlaşdırılmasının elmi-nəzəri əsaslarını; onun formalaşma tarixini; planlaşdırmanın təlimin keyfiyyətinə təsirini, təhsilin təşkili formaları və ondan istifadənin imkan və yollarını, təhsilin idarəedilməsinin nəzəri və praktik məsələlərini, idarəetmədə dövlət sənədlərini.

**Bacarmalıdır:**

- Təhsilin təşkili imkanlarını, hazırki şəraitdə onun tətbiqi texnologiyalarını, təhsilin təşkilində ənənəvi müasir

yanaşmanın tutuşdurulması, keçmişin dəyərli formalarından yaradıcı şəkildə istifadə olunmasını, planlaşdırmada milli-məəvi dəyərlərin yerinin müəyyənləşdirilməsini həyata keçirmək

**Səriştələrə yiyələnməlidir**:

- Düşüncə mədəniyyətinə - informasiyanı qavramaq, təhlil etmək, ümumiləşdirmək, məqsəd qoymaq və ona nail olmaq yollarını seçmək bacarıqlarına yiyələnmək;
- Tədqiqat metodlarından təbiət elmlərinin nəzəri və tətbiqi məsələlərinin (problemlərin) həllində səmərəli istifadə etmək;
- İrəli sürülən pedaqoji fikir və ideyalara, konsepsiyalara yeni pedaqoji təfəkkür (onun əsas prinsipləri) baxımından tənqidi, yaradıcı yanaşmaq, müstəqil mövqe ifadə etmək və onu əsaslandırmaq;
- Təlimin planlaşdırılmasında tədqiqat məsələlərinin elmi və praktik dəyərini qiymətləndirmək.

***Təhsil texnologiyaları***

Fənnin tədrisinin göstərilən texnologiya formalarının həyata keçirilməsi üçün aşağıdakı təlim mərhələ və prinsipləri nəzərdə tutulur:

− motivasiya;
− problemin qoyuluşu;
− axtarış;
− informasiya mübadiləsi, müzakirəsi;
− ümumiləşdirmə;
− yaradıcı tətbiq etmə;
− həyatla əlaqə; − elmililik;
− əyanilik;
− biliklərin möhkəmləndirilməsi və s.

## 1. **Planlaşdırmanın məzmunu və əhəmiyyəti**

Tədris prosesinin səmərəli, nizamlı və məqsədyönlü həyata keçirilməsində planlaşdırma əsas şərt kimi. Təhsildə planlaşdırmada tədris prosesinin məqsədlərinin müəyyənləşdirilməsinin, məzmunun seçilməsinin, metod və vasitələrdən istifadənin planlaşdırılmasının, nəticələrin düşünərək təşkil edilməsinin planlaşdırmaya təsiri.

Planlaşdırmanın məzmunu: məqsədlərin müəyyənləşdirilməsi; Tədris məzmununun seçilməsi, qiymətləndirmə mexanizmləri, insan və maddi resursların planlaşdırılması və planlaşdırmanın səviyyələri: strateji (uzunmüddətli), taktiki (orta müddətli), operativ (qısamüddətli).

Planlaşdırmanın əhəmiyyəti: tədris prosesində ardıcıllıq və sistemlilik yaradır, müəllim və tələbələrin fəaliyyətini məqsədə yönəldir. Vaxt və resursların səmərəli istifadəsini təmin edir.

## 2. Strateji və taktiki planlaşdırma

Planlaşdırmanın növləri. Strateji planlaşdırmanın xüsusiyyətləri: uzunmüddətli, qlobal və milli təhsil siyasətinə əsaslanma. Təhsil sektorunda strateji planlaşdırma: Nazirlik səviyyəsində; Universitet səviyyəsində; məktəb səviyyəsində. Taktiki planlaşdırma. Taktiki planlaşdırmanın xüsusiyyətləri; Qısamüddətli (bir, strateji planın icrasının təmin edilməsi, dərslərin, fənn proqramlarının, qiymətləndirmələrin planlaşdırılması, icra mexanizmləri).

## 3. Planlaşdırma mərhələləri

Təhsildə uğurlu plan qurmaqda planlaşdırma mərhələləri və metodları əsas şərtlərdən biri kimi, planlaşdırmanın mərhələləri: məqsəd və hədəflərin

müəyyən edilməsi, mövcud vəziyyətin təhlili, alternativ yolların və fəaliyyətlərin müəyyən edilməsi, alternativ yolların seçilməsi, təfərrüatlı planın hazırlanması, həyata keçirilməsi, nəzarət, monitorinq və qiymətləndirmə və s. planlaşdırmanın mərhələləri: hazırlıq mərhələsi, analitik mərhələ, planın hazırlanması, tətbiq etmə.

## 4. Planlaşdırmanın metodları

Planlaşdırmanın planlaşdırılmasında metodlardan istifadə əsas şərt kimi.

SMART GANTT, dioqramı, fəaliyyət planı, ümumilikdə qəbul olunmuş və çox işlədilən metodlar: 1) Gələcəyə yönəlmiş metodlar (ehtiyacların proqnozlaşdırılması metodu, trendlərin ekstrapolyası; Delfi metodu). 2) Məqsədə yönəlmiş metodlar; SWOT təhlili, məqsədilə idarəetmə, ssenari planlaşdırılması. 3) Resursa yönəlmiş metodlar: resurs təsisatı. Təhsil sistemində planlaşdırma metodlarından istifadə: normativ metod, proqnozlaşdırıcı metod, strateji metod, kooperativ (iştirakçılıq), modul metod. Metodların səciyyəvi xüsusiyyətləri.

## 5. Təhsil menecerlərinin idarəçilik fəaliyyətində pedaqoji prinsiplər

Menecment anlayışının ən ümumi, ən universal anlayışlar sırasına daxil edilməsi. Menecment fəaliyyətinin sosial sistemlər sahəsində *(o cümlədən pedaqoji sistemlər sahəsində)* zəruriliyi.

Planlaşdırmanın elmi əsası və onun elmi biliklər sistemində yeri. Elmi biliklər idarəetmə praktikasının nəzəri əsası kimi.

Təhsil Nazirliyi, şəhər, rayon təhsil şöbələri idarəetmə sisteminin subyektləri kimi. Mürəkkəb, dinamik sosial sistem olan ümumtəhsil orta məktəbi məktəbdaxili

idarəetmənin obyekti kimi. Məktəbdaxili idarəetmə optimal nəticələr əldə etmək üçün tam pedaqoji prosesin iştirakçılarının məqsədyönlülüyü.

Tam pedaqoji prosesin iştirakçılarının qarşılıqlı təsirinin funksiyalardan asılılığı: işin təhlili, işin məqsədi və planlaşdırılması, işin təşkili, ona nəzarət, nizama salma və təshih etmə; məktəbi idarəetmə nəzəriyyəsi məktəbdaxili menecment nəzəriyyəsi ilə əhəmiyyətli şəkildə tamamlanması; menecerin (məktəbi idarə edən) fəaliyyəti öz əməkdaşlarına hörmət və etibar əsasında, işdə uğur qazanmaq üçün onlara şərait yaratmaq əsasında qurulması.

**Menecment fəaliyyətində təhsilin planlaşdırılması prinsipləri:** kollegiallıqla vahid rəhbərliyin əlaqələndirilməsi; planlaşdırmada dövlət və ictimai əsasların əlaqələndirilməsi; planlaşdırmada demokratiklik əlaqəsi; planlaşdırmada planlılıq; planlaşdırmada millilik, humanistlik; planlaşdırmada səmərəliliyə, yekun nəticələrə nail olmaq meyli; planlaşdırmada mərkəzləşdirmənin və desentralizasiyanın rasional əlaqələndirilməsi; ictimai yönümlülük, davamçılıq və çeviklik, inklüzivlik, bərabər fürsət və s.

## 6.Müəllimin planlaşdırma texnologiyası

Təlim prosesinin səmərəli təşkilinin müəllimin planlaşdırma məsuliyyətindən asılılığı. Təlimin məqsədli, sistemli və nəticəyönümlü təşkili. Məsuliyyət yaradan sahələr: tədris plan və proqramının öyrənilməsi, dərsin planlaşdırılması, şagirdyönümlü planlaşdırma, resursların planlaşdırılması, qiymətləndirmənin təşkili, davamlı inkişaf, vaxtın düzgün bölgüsü, əks əlaqə və qiymətləndirmə. Planlaşdırmanın şagirdin öyrənmə motivasiyasına təsiri.

## 7. Təhsildə planlaşdırma menecment fəaliyyətinin başlanğıc hissəsi kimi

Təhsildə planlaşdırmanın əhəmiyyəti. Planlaşdırmanın prinsipləri.

Təhsildə planlaşdırmanın növləri: perspektiv plan, rüblük, aylıq palnlar, cari planlaşdırma. Tor-qrafik planlaşdırma.

Planlaşdırmanın tərtibinə verilən tələblər.

Planlaşdırmaya rəhbərlik və nəzarət.

Məktəb rəhbərlərinin planlarının quruluşu.

Məktəbdə təlim-tərbiyə prosesini müasir tələblər səviyyəsində qurulması. Təhsil menecmenti işinin planlaşdırılması: gündəlik, həftəlik, aylıq, rüblük və illik iş planı İş planının sahələri: giriş; təşkilati-pedaqoji işlər; təlim-tərbiyə işlərinə rəhbərlik; sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərinə rəhbərlik; metodik işə rəhbərlik; valideyn və ictimaiyyətlə iş; əlavə tədbirlər.

## 8. Təhsil prosesində planlaşdırma problemi

İdarəetmədə resurs anlayışı. Resurs çatışmazlığının təlimin təşkilinə təsiri. Müəllimin planlaşdırma bacarığının olmamasının təlimin təşkilinə təsiri. Kurikulum tələblərinin nəzərə alınmamasının təlimin təşkilində yaratdığı çətinliklər.

İKT vasitələrinin tətbiqində yaranan çətinliklər və onların aradan qaldırılması. Vaxt bölgüsünün düzgün bölüşdürülməsi. Planlaşdırmada çətinliyin aradan qaldırılması vasitəsi kimi. Qiymətləndirmənin planlaşdırılmasında yaranan çətinliklər. İnklüziv və fərdi təhsil tələblərinin nəzərə alınmasında çətinliklər və onun aradan qaldırılması yolları.

## 9.Planlaşdırmada məktəbdaxili idarəetmənin rolu və pedaqoji təhlilinin aparılması

Planlaşdırmada idarəetmənin yeri. Menecmentin fəaliyyətində pedaqoji təhlil tam pedaqoji prosesi idarəetmənin funksiyalarından biri kimi. İdarəetmə dövrəsinin strukturunda pedaqoji təhlilin xüsusi yer tutması. Ardıcıl və bir-biri ilə qarşılıqlı bağlı olan funksiyalardan ibarət olan hər hansı idarəetmə dövrəsi pedaqoji təhlillə başlaması və onunla da qurtarması.

İdarəetmənin və pedaqoji fəaliyyətin effektliyi məktəb rəhbərlərinin, müəllimlərin pedaqoji təhlilin metodikasına yiyələnmələrindən asılı olması. Pedaqoji və ya şagird kollektivində işlərin həqiqi vəziyyətini bilmək pedaqoji prosesin tənzimlənməsi və korrektirovkası prosesində düzgün qarşılıqlı münasibətlər sisteminin yaranmasında çətinliklərin meydana gəlməsi.

Pedaqoji təhlilin əsas məqsədi pedaqoji prosesin vəziyyətini və inkişaf tendensiyasını öyrənmək, onun nəticələrini obyektiv qiymətləndirmək, bunun əsasında idarəetmə sistemini qaydaya salmaq üçün tövsiyələr işləyib hazırlamaq. İdarəetmə dövriyyəsinin strukturunda bu funksiya ən çətin funksiyalardan biri kimi.

İdarəetmənin başqa funksiyalardan fərqliliyi. Məktəbdaxili idarəetmənin nəzəriyyə və praktiksında pedaqoji təhlilin növləri: parametrik (parametr-hər hansı bir hadisənin bu və ya digər xassəsini göstərən kəmiyyət) təhlil, tematik təhlil, yekun təhlil.

Məktəb rəhbərlərinin - Menecmentin idarəetmə fəaliyyətində dərsin təhlilinin növləri: geniş təhlil, qısa təhlil, aspekt təhlil (dərsin hər hansı bir tərəfini öyrənmək).

Məktəbin tədris işinin yekun təhlilinin məzmunu və istiqamətləri: tədrisin keyfiyyəti; şagirdlərin bilik, bacarıq və vərdişlərinin keyfiyyəti; şagirdlərin tərbiyəlilik səviyyəsi; valideynlərlə və ictimaiyyətlə işin effektliliyi; məktəblilərin

sağlamlıq vəziyyəti və sanitar-gigiyenik mədəniyyəti; məktəb şurasının, pedaqoji şuranın fəaliyyətinin nəticələri.

Yekun təhlilin keçirilməsi, onun obyektivliyi, dərinliyi, perspektivliyi yeni tədris ili üçün planın hazırlanması.

## 10.Təhsil müəssisələrinin təşkili

Təhsilin əsas məqsədləri:

1. Fərdi inkişafın təmin edilməsi;
2. Cəmiyyətə inteqrasiya;
3. Peşə və həyati bacarıqlara yiyələnmə;
4. Əxlaqi və mənəvi dəyərlərə yiyələndirilməsi;
5. Yaradıcı və tənqidi düşüncə bacarıqlarının inkişafı;
6. Ömürboyu öyrənmə vərdişlərinin formalaşdırılması.

Təhsilin məqsədləri: fərdi, sosial, iqtisadi və mədəni.

Fərdi işin məqsədləri: şəxsi potensialın açılması, müstəqil təfəkkürün formalaşdırılması, mənəvi-əxlaqi dəyərlərin formalaşdırılması, özünüdərk və özünürealizasiya.

Sosial məqsədlər: vətəndaşlıq tərbiyəsi, sosial inteqrasiya və həmrəylik, sosial mobillik, demokratik cəmiyyətin formalaşması.

İqtisadi məqsədlər: insan kapitalının formalaşması, əmək bazarına hazırlıq, innovasiya və elmi-texniki tərəqqi.

Müasir dövrdə təhsilin məqsədləri: kompetensiyaların inkişafı, rəqəmsal savadlılıq, ekoloji tərbiyə, ömürboyu öyrənmə.

## 11.Təhsil müəssisələrinin təşkili prinsipləri

Təhsil müəssisələrinin təşkili məktəblərin, kolleclərin, ali məktəblərin və s. təhsil ocaqlarına aid qurulmasını tələb edən amil kimi. Təhsil müəssisələrinin təşkili prinsipləri: demokratiklik, humanistlik, ictimai yönümlülük, milli və ümumbəşəri dəyərlərin qorunması, elmi və pedaqoji əsaslılıq, davamlılıq və çeviklik, keyfiyyət və səmərəlilik,

differensiasiya və fərdiləşdirmə, inklüzivlik və bərabər imkan, regional xüsusiyyətlərə uyğunluq, həyatla əlaqə, açıqlıq və şəffaflıq. Təlim prinsiplərinin səciyyəvi xüsusiyyətləri.

## 12. Kurikulumun təhsil modelinin planlaşdırılması.

Azərbaycan təhsil sistemində kurikulumun yeri. Kurikulumun təməl prinsipləri: tələbyönümlülük, məqsədyönümlülük, nəticəyönümlülük, şagirdyönümlülük, inteqrativlik. Kurikulumun tərkib hissələri, komponentləri. 1) məqsəd və məkan, 2) hədəflər, 3) məzmun, tədris üsulları 4) resurslar, 5) vaxt, 6) təlim strategiyaları və metodları, 7) təlim mühiti, 8) qiymətləndirmə. Kurikulum dinamik proses kimi. Kurikulumun komponentlərinin bir biri ilə əlaqəsi. Kurikulumun tətbiqi.

## 13. Təhsilin təşkilində diaqnostlaşdirma, layihələşdirmə və proqnozlaşdırma

Layihələşdirilmiş pedaqoji fəaliyyət anlayışı; pedaqoji prosesin komponentlərinin layihələşdirilməsi: məqsəd, vəzifə, prinsip və metodlar, idarəetmə; təlim və tərbiyənin layihələşdirilməsi; təhsil sisteminin səmərəliliyinin qiymətləndirilməsi; təhsil sisteminin nəticələrinə nəzarət metodları; ekspertiza təhsil sisteminin qiymətləndirilməsinin mühüm üsulu kimi; təhsil sisteminin ekspertizasının meyarları; təhsil sisteminin proqnozlaşdırılması

## 14. Təhsilin planlaşdırılmasında tədris planı və proqramının yeri

Tədris planı və proqramı hər hansı bir fənnin tədrisinin sistemli və məqsədyönlü təşkili sənədi kimi. Tədris planı strukturunun birinci variantı: a) tədris planının

strukturu – bölmələri: giriş hissə, ümumi tədris yükü, fənlərin bölüşdürülməsi, tədris formaları, imtahan və qiymətləndirmə; b) tədris proqramının strukturu və komponentləri: ümumi məlumatlar, fənnin məqsəd və vəzifələri, fənnin məzmunu və tematik plan, qiymətləndirmə sistemi, inkişaf etmiş bacarıqlar. Tədris planı və proqramının strukturunun ikinci və dördüncü variantı: Tədris plan və proqramının üçüncü variantları.

## 15. Təhsilin təşkili prosesində iştirak edənlər

Təhsil sistemində idarəçilər: məktəb rəhbərləri, fakültə dekanları, təhsil şöbələrinin müdirləri, nazirlik əməkdaşları və s. Onların əsas funksiyaları: strateji planlaşdırma, resursların idarə olunması, kadr siyasəti, nəzarət, innovasiyaların təşviqi, əlaqələndirmə.

İdarəçilərin təhsilin təşkilində rolu: strateji planlaşdırma və məqsədyönlü inkişaf, təşkilati idarəetmə, kadr potensialının formalaşdırılması, resursların idarə olunması, monitorinq və qiymətləndirmənin təşkili, innovasiyaların tətbiqi və dəstəklənməsi, əlaqələndirmə və ictimaiyyətlə iş. İdarəedicilərin təhsilin təşkilində rolu: keyfiyyətlərin təminatı, innovasiyaların tətbiqi, motivasiya və liderlik. Təhsilin təşkilində strateji qərarlar.

Təhsilin təşkilinin tədris proqramına uyğun auditoriya formaları: mühazirələr, seminarlar və s. təlimin təşkilinin tədris planına uyğun auditoriyadan kənar təşkili: sərbəst işlər, tələbə müstəqil işləri, imtahanlar və s. Monitorinq və qiymətləndirmənin təşkili və keçirilməsi, tələbələrin biliyinin çoxballı sistemlə qiymətləndirilməsinin təşkili qaydaları

## İstifadə edilmiş və tövsiyə edilən ədəbiyyat siyahısı


1. Azərbaycan Respublikasının Konstitutsiyası. Bakı: Azərbaycan, 1996.
2. Azərbaycan Respublikasının Təhsil İslahatı Proqramı. Azərbaycan Respublikası Nazirlər Kabineti 168 №li sərəncamı, 15 iyun 1999-cu il.
3. Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının materialları. Bakı:Təhsil, 2003.
4. Azərbaycanda təhsil siyasəti. I kitab, Bakı, Təhsil, 2005.
5. Azərbaycan Respublikasında Ümumi təhsil Konsepsiyası. (Milli kurikulum) "Kurikulum" jurn. 2008, № 1.
6. Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika. Bakı, 2001.
7. Abbasova Q.İ., Mahmudova R. M., Əlizadə H.Ə. Təhsilin sosial-peadqoji məsələləri.Bakı, 2008.
8. Babayev R. Müasir təhsil müəssisələrinin idarə edilməsi. Bakı, 2018
9. Bayramov H., Kəlbəliyev Ə. Təhsili idarəetmənin əsasları. Bakı, 1998.
10. Cabbarov R. Təhsil müəssisələrinin idarə edilməsi. Bakı, 2009
11. Əhmədov N. Pedaqoji şura kollegial idarəetmə orqanıdır. Bakı, 1989.
12. Hüseynzadə R.L. İsmayılova M.C. Tərbiyə işi və onun metodikası. Dərs vəsaiti. Bakı, ADPU, 2012.
13. Hüseynzadə R.L., Əkbərov N.F. Məktəbdə pedaqoji prosesin təşkili. Bakı, Aktiv, 2013.
14. İsmixanov M.A., Bəxtityarova R.Ə. Məktəbin idarə edilməsi. Bakı,2012

15. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika. Dərslik, Bakı, BDU, 2021.
16. Qasımova L., Mahmudov V. və b. Təhsilin təşkili, planlaşdırılması və idarə edilməsi. Bakı, 2025
17. Qasımova F. Məktəb idarəçiliyi və planlaşdırma texnologiyası. Bakı, 2021
18. Quliyev Ə. – Menecmentin əsasları. Bakı, 2000
19. Həsənov M. Təhsilin planlaşdırılması və təşkili. Bakı, 2019
20. Məmmədov R. Təhsilin planlaşdırılması və strateji idarəetmə. Bakı, 2013
21. Vəliyev R. Təhsilin planlaşdırılması və təşkilinin pedaqoji əsasları. Bakı, 2017